Azərbaycan Respublikasının
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Agentliyi

Demokratiyanı Öyrənmə
İctimai Birliyi

# ŞƏHİD AİLƏLƏLƏRİNİN VƏ QAZİLƏRİN SOSİAL TƏMİNATLARI







# BƏLƏDÇİ

Bakı - 2022

**“Demokratiyanı Öyrənmə” İctimai Birliyi**

**Şəhid ailələrinin və qazilərin sosial təminatları**

**BƏLƏDÇİ**

*Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirmir.*

*Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.*

# G İ R İ Ş

Azərbaycan xalqının dəyərləri sistemində vətənə məhəbbət önəmli yerlərdən birini tutur. Tarixin bütün mərhələlərində, hətta müstəqil olmadığı zamanlarda belə xalqımız vətəninin azadlığı uğrunda canından keçməyə hazır olduğunu hər zaman sübut etmişdir. Məhz bu hiss uzun və çətin mübarizədən sonra xalqımızı müstəqilliyə qovuşdurmuş və onu azad xalqlar sırasına qovuşdurmuşdur. Ölkəmizin azadlığı və müstəqlliyi uğrunda xalqımız 20 yanvar 1990-cı il faciəsindən başlayaraq qürur yerimiz olan 44 günlük Vətən Müharibəsinədək on minlərlə şəhid vermiş və qazi olmuşlar. Azərbaycan dövləti, o cümlədən hər bir azərbaycanlı bu şəxslərə böyük dəyər verir və onlarla qürur duyur. Bunun nəticəsidir ki, şəhidlərin, şəhid ailələrin və qazilərin ləyaqətli həyat səviyyəsinin təmin edilməsi bütövlükdə cəmiyyətin və dövlətin böyük önəm verdiyi məsələlərdən birini təşkil edir. Təsadüfi deyildir ki, ölkə qanunvericiliyi bu koteqoriyadan olan şəxslər üçün geniş təminatlar sistemi müəyyən etmişdir. Onların ləyaqətli şəkildə yaşaması digər amillərlə yanaşı, həm də bu təminatlar sistemindən nə dərəcədə faydalanmalarından əhəmiyyətli dərəcədə asılıdır. Təcrübə göstərir ki, bir çox hallarda təsbit edilən təminatlar sistemi haqqında zəruri məlumatlılığın olmaması, şəhid ailələrini və qaziləri bu imkanlardan məhrum edir. Qarşınızda olan bu Bələdçi qeyd edilən ehtiyaclardan çıxış edərək hazırlanmışdır. Bələdçidə şəhid ailələri və qazilərin qanunvericiliklə müəyyən edilmiş sosial təminatları və bu təminatlara çatmaq yolları haqqında zəruri məlumatlar təqdim edilir. Qeyri-Hökumət Təşkilatı olaraq bu kiçik dəstəyimizlə şəhid ailələrinin və qazilərin sosial təminatları haqqında məlumatlılığının artmasına az da olsa töhfə verməkdən məmnunluq duyur və Bələdçinin həyatınızın dəyişməsinə müsbət təsir göstərəcyinə ümid edirik.

# M Ü N D Ə R İ C A T

I. ŞƏHİD AİLƏSİ ÜZVLƏRİNİN SOSİAL TƏMİNATLARI 5

1. Şəhid və şəhid ailəsi üzvləri kimlərdir? .............................. 5
2. Şəhid və şəhid ailəsi statusu necə verilir? ........................... 7
3. Şəhid ailələrinin hansı sosial təminatları vardır? ............. 10

II. QAZİLƏRİN SOSİAL TƏMİNATLARI............................. 15

1. Qazi kimdir?.............................................................. 15
2. Müharibə veteranları kimlərdir? ...................................... 16
3. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər kimlərdir? ..... 18
4. Müharibə veteranlarının sosial təminatları ....................... 19
5. Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial təminatları ........................................................ 21

# I. ŞƏHİD AİLƏSİ ÜZVLƏRİNİN SOSİAL TƏMİNATLARI

## 1. Şəhid və şəhid ailəsi üzvləri kimlərdir?

**a. Şəhid anlayışı**

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsinə əsasən, şəhid Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxsdir. Aşağıdakılar şəhid hesab edilirlər:

- 1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr nəticəsində həlak olanlar;
- 11 dekabr 1988-ci ildə Leninakanda qəzaya uğrayan təyyarədə həlak olmuş şəxslər;
- Azərbaycan Respublikasında 1988-ci ildən 1990-cı ilin yanvar ayınadək olan dövrdə Sovet Ordusunun qeyri-qanuni hərəkətləri və ya manevrləri nəticəsində həlak olmuş vətəndaşlar;
- Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü, *habelə ölkənin digər ərazilərində erməni hərbi təxribatı (hücumu, zərbəsi)* nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar;
- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçular;

- Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hadisələrdə, o cümlədən atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə və ya daxili işlər, *dövlət təhlükəsizliyi və xarici kəşfiyyat* orqanlarında, *habelə Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətində, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində* döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilmiş şəxslər;
- Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olmuş və ya itkin düşmüş hərbi qulluqçular.

**b. Şəhid ailəsinin üzvləri kimlərdir?**

Yuxarıda qeyd edilən Qanuna görə, aşağıdakı şəxslər şəhid ailəsinin üzvləri hesab edilir:

- şəhidin arvadı (əri);
- şəhidin valideynləri;
- şəhidin 18 yaşına çatmamış uşaqları, *18 yaşınadək əlilliyi müəyyən edilmiş* 18 yaşından yuxarı *əlilliyi olan* övladları;
- qardaşları və bacıları — uşaq evlərində tərbiyə olunanlar;
- babalar və nənələr, qanunla onları saxlayan şəxs yoxdursa;
- Şəhidin övladları, həmçinin bacıları və qardaşları əyani təhsil müəssisələrində - *peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın magistratura səviyyəsində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında* təhsil aldıqda 23 yaşa çatanadək şəhid ailəsi üzvü hesab edilirlər.

## 2. Şəhid və şəhid ailəsi statusu necə verilir?

Şəhid və ya şəhid ailəsi statusu verilməsi məsələsinə:

- marağı olan şəxsin müvafiq dövlət orqanlarına müraciəti
- dövlət orqanının vəsatəti
- müvafiq hərbi hissənin vəsatəti ilə baxılır.

Müvafiq dövlət orqanı müraciətləri və vəsatətləri dərhal qəbul edib 1 aydan gec olmayaraq şəhid və ya şəhid ailəsi statusu barədə bu Qanuna müvafiq surətdə sənəd verməlidir.

Şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə maraqlı şəxsin müraciəti və dövlət orqanlarının və ya müvafiq hərbi hissənin vəsatəti ilə baxılır. Şəxsin şəhid hesab edilməsi

- ölüm haqqında şəhadətnamə,
- məhkəmə qətnaməsi,
- hərbi hissənin arayışı əsasında təsdiq olunur.

Həlak olmuş hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin şəhid hesab edilməsi müvafiq hərbi hissənin arayışı ilə təsdiq edildikdə hərbi hissənin arayışında hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlinin Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı, habelə atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi, yaxud dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olması faktı öz əksini tapmalıdır. Şəhid ailəsi statusu müvafiq dövlət orqanlarının verdiyi arayışlarla təsdiq olunur.

| *Şəhid status almış şəxs* | *Arayışı verməli olan dövlət orqanı (şəhidin xidmətdə olduğu qurum)* |
|---|---|
| Gizir və zabit heyəti olduqda | - Müdafiə Nazirliyi,<br>- Daxili İşlər Nazirliyi,<br>- Dövlət Təhlükəsizliyi Xidməti,<br>- Xarici Kəşfiyyat Xidməti,<br>- Dövlət Sərhəd Xidməti,<br>- AR Prezidentinin Təhlükəsizlik Xidməti,<br>- Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti,<br>- Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi<br>(Bu qurumların kadrlar idarələri tərəfindən) |
| Digər hərbi qulluqçulara *(əsgər, matros və çavuş heyəti)* | - Hərbi qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq olaraq yerli *baş idarə,* idarə, şöbə və bölmələri |
| Mülki vətəndaşlara | - Rayon (şəhər) icra hakimiyyəti orqanları |

Qeyd: *Müdafiə Nazirliyinin zabit və gizir heyətinə münasibətdə şəhid və şəhid ailəsi hesab edilməsi üçün arayışların verilməsi, habelə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən digər hərbi qulluqçulara (əsgər, matros və çavuş heyəti) münasibətdə şəhid və şəhid ailəsi hesab edilməsi üçün arayışların verilməsi məqsədilə maraqlı şəxs* ***"Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri``****nə də müraciət edə bilər.*

Cavadbeh qurumlar şəhid və şəhid ailəsi hesab edilməsi üçün müraciət və vəsatətləri dərhal qəbul edib, bir aydan gec olmayaraq müvafiq surətdə arayış verməlidir.

Müvafiq dövlət orqanları şəhid və şəhid ailəsi statusu verildiyi tarixdən 5 (beş)
iş günü müddətində bu barədə məlumatı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya
sisteminin "Zəfər" altsisteminə daxil edirlər.

Şəhid ailələrinə vəsiqə müvafiq dövlət orqanlarının verdiyi arayışlara əsasən yaşadıqları ərazi üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumları tərəfindən verilir.-

# 3. Şəhid ailələrinin hansı sosial təminatları vardır?

Şəhid ailəsi statusunu almış ailənin üzvlərinə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada aşağıdakı təminatlar verilir:

**3.1. Birdəfəlik sığorta ödənişi** - həlak olmuş hərbi qulluqçuların ailələrinə 11 000 manat sığorta ödənişi həyata keçirilir. Aşağıdakı hallarda şəhid ailəsinə birdəfəlik sığorta ödənişi 100 faiz həcmində ödənilir:

a) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman həlak olduqda, öldükdə və ya xəbərsiz itkin düşdüyünə görə məhkəmə qərarı ilə ölmüş elan edildikdə;

b) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman xəsarət (yaralanma, travma, kontuziya) alması, habelə xəstələnməsi nəticəsində xidmətdən (toplanışdan) buraxıldıqdan sonra üç il müddətində öldükdə;

c) sığorta olunan həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman xəbərsiz itkin düşdükdə (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda);

Sığorta ödənişinin verilməsi üçün vərəsə (-lər) həlak olmuş hərbi qulluqçunun ölüm haqqında şəhadətnaməsinin surətini, notariat qaydada təsdiq edilmiş vərəsəlik şəhadətnaməsini və vərəsə(-lər)nin şəxsiyyət vəsiqəsinin surətini müvafiq quruma təqdim etməlidir. Sənədlər təqdim edildikdən 10 iş günü ərzində 11000 (on bir min) manat sığorta ödənişi vərəsə(-lər)-nin bank hesabına köçürülür.

**3.2. Dəfn mərasiminin təşkili üçün maliyyə yardımı** – şəhidin valideynlərinə (nümayəndələrinə) yas mərasiminin təşkili üçün 3 000 manat məbləğində maliyyə yardımı ödənilir. Valideyn

(nümayəndə) həlak olma (vəfat etmə) barədə hərbi hissə (müəssisə, idarə və təşkilat) komandirinin (rəisinin) əmrini Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli bölməsinə təqdim edir, oradan 3 (üç) iş günü müddətində müvafiq vəsait nağdsız hesablaşma yolu ilə ödənilir.

**3.3. Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü** - şəhid ailəsinə hazırda məbləği 500 manat olan AR Prezidentinin təqaüdü ödənilir. Prezident təqaüdü hər bir şəhidə görə təyin edilir və ailə üzvlərinin sayına bərabər bölünməklə ödənilir.

Təqaüdün təyin edilməsi üçün şəhid ailəsi statusu haqqında müvafiq arayış (şəhid ailələrinə verilən vəsiqə) Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli strukturuna təqdim edilir. Arayışla birgə müraciət edən şəxsin şəhidlə qohumluğunu təsdiq edən sənəd, təqaüd almaq hüququ olan digər ailə üzvləri barədə məlumat və ərizə təqdim edilməlidir.

Prezident təqaüdü şəhid ailəsi üzvlərinə yaşayış yeri üzrə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun yerli qurumları və ya "DOST" mərkəzləri tərəfindən təqaüd almaq hüququ olan ailə üzvlərinə təyin edilir.

Xaricdə yaşayan şəhid ailəsi üzvlərinə təqaüd Dövlət Sosial Müdafiə Fondu tərəfindən onların arzularına əsasən Azərbaycan Respublikasının banklarında açılmış şəxsi hesablarına və ya öz vəsaitləri hesabına yaşadıqları ölkələrə köçürülür.

Müraciət müddətindən asılı olmayaraq, AR Prezidentinin təqaüdü onu almaq hüququ yarandığı gündən təyin edilir, dövlət büdcəsinin vəsaiti hesabına və yalnız nağdsız qaydada ödənilir.

**3.4. Ailə başçısını itirməyə görə pensiya** - şəhidin pensiya hüququ olduqda ailə üzvlərinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ailə başçısını itirməyə görə pensiya ödənilir. Şəhidin ailə üzvünə ailə başçısını itirməyə görə pensiya "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təyin edilir.  Şəhid zabit, gizir və müddətdən artıq xidmət edən (MAXE) şəxs olubsa, ailə başçısını itirməyə görə pensiya hüququ olan ailə üzvlərindən biri şəhidin xidmət keçdiyi quruma müraciət edir; həmin qurum məlumat vərəqəsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərir; Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq bölməsi şəhidin ailə üzvündən pensiya təyin edlməsi üçün digər müvafiq sənədləri qəbul edib təyinat aparır. Şəhid əsgərdirsə, ailə başçısını itirməyə görə pensiya hüququ olan ailə üzvləri müvafiq sənədlərlə birbaşa Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq bölməsinə müraciət edir və təyinat aparılır.

**3.5. Müavinət (aylıq)** – şəhidin pensiya hüququ olmadıqda ailə başçısını itirməyə görə hər bir ailə üzvü 100 manat məbləğində müavinət alır. Şəhidin ölüm haqqında şəhadətnaməsi onun ailə üzvü tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli strukturuna təqdim edilir, oradan müavinət almaq hüququ olan ailə üzvlərinə müavinət təyin edilərək ödənişə göndərilir.

**3.6. Mənzil təminatı** – 1 yanvar 2020-cü ilədək eyni zamanda 2020-ci ildə yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailəsi üzvlərinin mənzil və ya fərdi evlə təmin edilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılır. Bu kateqoriyadan olan şəxslər tərəfindən rayon (şəhər) İcra Hakimiyyəti orqanlarına müraciət edilir, növbəlilik siyahıları rayon (şəhər) İcra

Hakimiyyəti orqanları tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunur. Bu siyahılara uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən onlar növbəlilik əsasında mənzil və ya fərdi evlə təmin edilirlər.

**3.7. Psixoloji dəstək** - Şəhid ailəsi üzvlərinə post-müharibə dövründə ilkin diaqnostika aparıldıqdan sonra fərdi və qrup konsultasiyaları, ailə terapiyaları kimi psixoloji metodlardan istifadə olunmaqla psixoloji dəstək göstərilir. Psixoloji dəstək şəhid ailəsi üzvlərinin müraciəti əsasında göstərilir.

**3.8. Sanatoriya-kurort müalicəsi** - şəhid ailəsi üzvləri tibb müəssisələrinin göndərişi ilə ölkə daxilində pulsuz sanatoriya-kurort müalicəsi ilə təmin edilirlər (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən). Şəxs bu dəstəyi tibb müəssisələrinin göndərişi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edilməklə əldə edir.

**3.9. Təhsil** - şəhid uşaqları təhsil haqqını ödəməkdən azad olunurlar.

**3.10. Özünüməşğulluq** - Şəhid ailəsi üzvlərinin özünüməşğulluq proqramına ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur və proqram çərçivəsində kiçik ailə təsərrüfat və müəsissələrini yaratmaları üçün onlara mal və materiallar formasında aktivlər təqdim edilir. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada "Məşğulluq Altsistemi"nə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müracət etməlidir.

**3.11. Haqqı ödənilən ictimai işlər** - Şəhid ailəsi üzvlərinin haqqı ödənilən ictimai işlərə ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi,

əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada "Məşğulluq Altsistemi"nə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**3.12. Sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi** - Şəhid ailəsi üzvlərinin sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada "Məşğulluq Altsistemi"nə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**3.13. Kvotadan əlavə iş yerlərinin yaradılması** - Şəhid ailəsi üzvlərinin müəssisələrdə iş yerlərinə işlərə qəbulu və əməkhaqqının 100%-dək maliyyələşdirilməsi. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada "Məşğulluq Altsistemi"nə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**3.14. Sosial müəssisələrin və əlavə iş yerlərinin yaradılması, məqsədli proqramların icrası** - Şəhid ailəsi üzvləri də daxil olmaqla həssas kateqoriyalardan olan şəxsləri əhatə edəcək xüsusi layihələrin həyata keçirilməsi. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada "Məşğulluq Altsistemi"nə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müracitə etməlidir.

# II. QAZİLƏRİN SOSİAL TƏMİNATLARI

## 1. Qazi kimdir?

Gündəlik həyatda qazi anlayışından istifadə edilsədə, bu heç bir hüquqi məna kəsb etmir. Ölkə qanunvericiliyində "qazi" deyilən subyekt mövcud deyil. Bu anlayışa əsasən xalq arasında, jurnalistikada, bədii ədəbiyyatda və digər müstəvilərdə rast gəlinir. Bəzi ekspertlərin fikrincə, bu ifadə dilimizə qardaş Türkiyə təcrübəsindən daxil olub. Türkiyədə vətənin azadlığı uğrunda döyüşlərdə iştirak edən və yaralanan şəxslərə qazi deyildiyindən, bizdə də müharibə əlillərinə və müharibə veteranı statusuna malik olan şəxslərə münasibətdə bu termindən istifadə edilir. Təcrübədə istifadə olunan qazi anlayşı ölkə qanunvericiliyində ***müharibə veteranları və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər*** kimi təsbit edilmişdir.

# 2. Müharibə veteranları kimlərdir?

"Veteranlar haqqında" Azərbaycan Respublikasının qanunun 3-cü maddəsinə əsasən aşağıdakılar müharibə veteranları sayılırlar:

- İkinci dünya müharibəsi illərində döyüşən orduda (donanmada), partizan birləşmələri tərkibində, gizli fəaliyyətdə Vətənin müdafiəsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş, habelə başqa ölkələrin ərazisində gedən məhəlli müharibələrdə və hərbi münaqişələrdə hərbi birləşmələrin tərkibində və keçmiş SSRİ Silahlı Qüvvələrinin, Dövlət Təhlükəsizliyi Komitəsinin, Daxili İşlər Nazirliyinin mütəxəssisləri və müşavirləri kimi iştirak etmiş şəxslər;

- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslər;

- 1944-cü il yanvarın 1-dən 1951-ci il dekabrın 31-dək Ukraynanın, Belorusiyanın, Baltikyanı respublikaların ərazisində quldur dəstələrinə qarşı silahlı mübarizədə iştirak etmiş şəxslər;

- Azərbaycan Respublikasının ərazisində daimi yaşayan, ikinci dünya müharibəsi illərində xarici ölkələrin ərazisində milli orduların, partizan dəstələrinin tərkibində faşist Almaniyasına, onun müttəfiqlərinə və imperialist Yaponiyaya qarşı döyüş əməliyyatlarında iştirak etmiş şəxslər;

- İkinci dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçiləri;

- 1941 — 1945-ci illərdə keçmiş Sovet ordusunda (donanmasında), daxili işlər və

dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçular;

- İkinci dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə.

- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarının aparıldığı ərazilərin və dövrlərin siyahısı, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarının iştirakçılarına aid edilən şəxslərin kateqoriyalarının siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

***Qeyd:*** *Bu maddənin birinci hissəsinin üçüncü abzası Azərbaycan Respublikası ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər istisna olmaqla, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarının aparıldığı dövrdə hərbi hissəni və ya xidmət yerini özbaşına tərk etməyə, fərariliyə və ya digər hərbi cinayətlərə görə məhkum edilmiş (2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 42-ci maddəsinin ikinci hissəsinə əsasən cəzadan azad edilmiş şəxslər istisna olmaqla) və ya barələrində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş və ya amnistiya aktına əsasən cinayət məsuliyyətindən azad edilmiş şəxslərə şamil edilmir.*

# 3. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər kimlərdir?

Müharibə ilə əlaqədar əlillik təyinatı aparılanlar iki qrupa bölünür:

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyin olunanlar;
2. Hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar əlillik təyin olunanlar.

Müharibə ilə əlaqədar əlillik təyinatı üçün aşağıdakı sənədlər tələb olunur:

- **Xəstəlik Haqqında Şəhadətnamə** - hərbi-həkim komissiyaları tərəfindən rəsmiləşdirilir və xəstəliyin, yaralanmanın və zədənin ərazi bütövlüyünün müdafiəsi və ya hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirməklə əlaqədar olduğu təsbit edilir;
- **Göndəriş (Forma 88) –** xəstəlik haqqında Şəhadətnamə əsasında müharibə səbəbilə göndəriş rəsmiləşdirilir (elektron) və şəxsin orqanizminin sağlamlıq vəziyyəti, müalicələr, müayinələr və digər tibbi məlumatlar qeyd edilir.

Xəstəlik Haqqında Şəhadətnamə üçün Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Həkim Komissiyası və ya digər hərbi həkim komissiyalarına (xidmət keçdiyi orqandan asılı olaraq) müraciət edilir. Göndəriş (Forma 88) şəxsin qeydiyyatda olduğu və yaxud xidmət keçdiyi qurumun tibb müəssisəsi tərəfindən rəsmiləşdirilir.

# 4. Müharibə veteranlarının sosial təminatları

**4.1. Birdəfəlik sığorta ödənişi** - hərbi qulluqçuya xəsarət (yaralanma, travma, kontuziya) alması zamanı əlilliyi müəyyən edilmədiyi zaman ağır xəsarət aldığı halda 2 750 manat, yüngül xəsarət aldığı zaman 550 manat sığorta ödənişi həyata keçirilir. Xəarət almış şəxs tərəfindən ağır və ya yüngül xəsarət haqqında Silahlı Qüvvələrin müvafiq hərbi həkim komissiyasının şəhadətnaməsi "Azərsığorta" Dövlət Sığorta Kommersiya Şirkətinə təqdim edildikdən 7 iş günü ərzində şəxsin bank hesabına ödəniş aparılır.

**4.2. AR Prezidentinin aylıq təqaüdü** (80 manat) ödənilir. Bu hüquq müharibə veteranı vəsiqəsi verildiyi tarixdən yaranır. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adı və vəsiqəsi xidmət keçdikləri (qulluq etdikləri, işlədikləri) qurum tərəfindən verilir. Daha sonra, həmin qurumlar "Müharibə veteranı" adı və vəsiqəsi verdikləri şəxslər barədə məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Zəfər" altsisteminə daxil edir. Yekun mərhələ kimi, həmin məlumatlar əsasında ƏƏSMN "Müharibə veteranı" adı verilmiş şəxslərə Prezidentin aylıq təqaüdünü (80 manat) təyin edir. Təqaüdün təyinatı müharibə veteranının müraciəti olmadan və heç bir sənəd təqdim etmədən, e-sistem üzərindən proaktiv qaydada həyata keçirilir. Bu barədə, həmçinin təqaüdlə bağlı bank kartını hansı bankdan alacağı və s. haqqında sms vasitəsilə müharibə veteranlarına məlumat verilir.

**4.3. Özünüməşğulluq**
- Müharibə veteranları ən qısa zamanda özünüməşğulluq proqramına növbədənkənar cəlb edilir, kiçik ailə təsərrüfat və müəsissələrini qurmaları üçün aktivlərlə təmin olunurlar. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**4.4. Haqqı ödənilən ictimai işlər** - veteranların haqqı ödənilən ictimai işlər proqramına ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**4.5. Sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi** - Müharibə veteranlarının sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

QEYD: *Müharibə veteranı müharibə ilə əlaqədar əlilliyi olan şəxsdirsə, o zaman ona müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün nəzərdə tutulan sosial təminat hüquqları şamil olunur.*

# 5. Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial təminatları

**5.1. Birdəfəlik sığorta ödənişi** - Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara əlillik dərəcəsinə uyğun olaraq:

I dərəcəyə görə - 8 800 manat;
II dərəcəyə görə - 6600 manat;
III dərəcəyə görə - 4 400 manat

məbləğində sığorta ödənişi həyata keçirilir. Sığorta ödənişinin verilməsi üçün əlilliyi müəyyən olunmuş şəxs əlillik dərəcəsi barədə Tibbi Sosial Ekspert Komissiyasının arayışını və şəxsiyyət vəsiqəsinin surətini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etməlidir. Sənədlər təqdim edildikdən 10 iş günü ərzində qanunla müəyyən edilmiş məbləğdə sığorta ödənişi şəxsin bank hesabına köçürülür.

**5.2. Azərbaycan Respublikası Prezidentinin təqaüdü (aylıq)** - Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü:

- orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə – 400 manat;
- orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə – 350 manat;
- orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə – 300 manat.

Prezident təqaüdü həmçinin I dərəcə əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edənlərə 80 manat məbləğində ödənilir. Azərbaycan Respublikası Prezidentinin təqaüdü əlillik səbəbi müəyyən edildiyi gündən yaranır.

**5.3. Əlilliyə görə pensiya (aylıq)** – I dərəcə əlilliyi müəyyən edilmiş şəxslərə hər bir halda, II və III dərəcə əlilliyi müəyyən edilmiş şəxslərə isə sığorta stajına əsasən hüquqları yarandıqda əlilliyə görə pensiya ödənilir. Təyinat elektron qaydada aparılır. Pensiya əlillik dərəcəsi müəyyən olunduğu gündən yaranır.

**5.4. Əlilliyə görə müavinət (aylıq)** – əlilliyi müəyyən edilmiş şəxslərin pensiya hüququ olmadıqda I dərəcə əlilliyi olan şəxsə 220, II dərəcə əlilliyi olan şəxsə 180, III dərəcə əlilliyi olan şəxsə 120 manat məbləğində müavinət ödənilir. Təyinat elektron qaydada aparılır. Müavinət əlillik dərəcəsi müəyyən olunduğu gündən yaranır

**5.5. Mənzil təminatı** – 1 yanvar 2020-cü ilədək eyni zamanda 2020-ci ildə yerli icra hakimiyyəti orqanlarında yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və ya fərdi evlə təmin edilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılır. Bu kateqoriyadan olan şəxslər tərəfindən rayon (şəhər) İcra Hakimiyyəti orqanlarına müraciət edilir, növbəlilik siyahıları rayon (şəhər) İcra Hakimiyyəti orqanları tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunur. Bu siyahılara uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən onların növbəlilik əsasında mənzil və ya fərdi evlə təmin edilmə həyata keçirilir.

**5.6. Avtomobillə təminat** – müharibə əlilləri növbəliliik qaydasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən pulsuz olaraq nəqliyyat vasitəsi ilə təmin olunurlar. Bu şəxslər qeydiyyatda olduğu səhiyyə müəssisəsinə müraciət edirlər,

sonra isə səhiyyə müəssisəsi elektron formada göndərişi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edir.

**5.7. Sanatoriya-kurort müalicəsi** – Müharibə ilə əlaqədar əlillik təyin edilmiş şəxslər tibb müəssisələrinin göndərişi ilə ölkə daxilində pulsuz sanatoriya-kurort müalicəsi ilə təmin edilirlər. Bunun üçün şəxs Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etməlidir.

**5.8. Reabilitasiya vasitələri ilə təminat** – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlil arabası da daxil olmaqla reabilitasiya vasitələri, protez-ortopedik vasitələr, yüksək texnologiyalı protezlərlə təmin olunurlar. Bunun üçün şəxs Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etməlidir.

**5.9. Reabilitasiya xidmətləri** – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin reabilitasiya müəssisələrində mütəmadi reabilitasiya kursları keçirlər. Bunun üçün şəxs Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etməlidir.

**5.10. Psixoloji dəstək** - Müharibə əlillərinə onların müraciətləri əsasında postmüharibə dövründə ilkin diaqnostika aparıldıqdan sonra fərdi və qrup konsultasiyaları, ailə terapiyaları kimi psixoloji metodlardan istifadə olunmaqla psixoloji dəstək göstərilir

**5.11. Təhsil** – Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin uşaqları, habelə I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslərin özləri təhsil haqqını ödəməkdən azad olunurlar.

.**5.12. Özünüməşğulluq** - Müharibə əlillərinin özünüməşğulluq proqramına ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur və proqram çərçivəsində kiçik ailə

təsərrüfat və müəsissələrini yaratmaları üçün onlara mal və materiallar formasında aktivlər təqdim edilir.  Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müracət etməlidir.

**5.13. Haqqı ödənilən ictimai işlər** - Müharibə əlillərinin haqqı ödənilən ictimai işlərə ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**5.14. Sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi**

- Müharibə əlillərinin sosial iş yerlərində əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına ən qısa zamanda növbədənkənar cəlb edilməsi təmin olunur. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**5.15. Kvota üzrə iş yerlərində işlə təmin edilmə** - Müharibə əlillərinin ən qısa zamanda növbədənkənar bu işlərə cəlb edilməsi təmin edilir. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq

Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**5.16. Kvotadan əlavə iş yerlərinin yaradılması** - Müharibə əlillərinin müəssisələrdə iş yerlərinə işlərə qəbulu və əməkhaqqının 100%-dək maliyyələşdirilməsi. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müraciət etməlidir.

**5.17. Sosial müəssisələrin və əlavə iş yerlərinin yaradılması, məqsədli proqramların icrası** - Müharibə əlilləri də daxil olmaqla həssas kateqoriyalardan olan şəxsləri əhatə edəcək xüsusi layihələrin həyata keçirilməsi. Bu dəstəyi almaq üçün şəxs işsizlik meyarlarına (aktiv əmək müqaviləsi, VÖEN-i, torpaq pay mülkiyyətçisi, əyani tələbə olmamalıdır) uyğun gəlməlidir. Şəxs onlayn qaydada Məşğulluq Altsisteminə (MAS), yerli ərazi məşğulluq və ya DOST mərkəzlərinə müracitə etməlidir.

Demokratiyanı Öyrənmə İctimai Birliyi
*Şəhid ailələri və qazilərin sosial təminatları*
*Bələdçi*

Bu vəsait 00 Mətbəədə çap edilmişdir.
Tiraj: 175 nüsxə